# İşartı

Vaqif BƏHMƏNLİ



*Əgər soruşsaydılar, xilas üçün daldalanmağa iki yer var - biri məbəd, o biri kitabxana, hansını seçirsən? Heç düşünmədən kitabxananı seçərdim. Ona görə yox ki, dinsizəm, ona görə ki, mən kitabam!*

Mənim əclaflıq imkanım hər kimdə olsaydı və həmin kəs o əclaflığın qarşısını mənim tərzimdə - yəni ürək yumşaqlığı və ağıl sərtliyi ilə almasaydı, bəlkə də dünyanın padşahı olardı. Fəqət iblis çuxasında, şeytan taxtında...

* * *

Hər kəs özü-özünə verdiyi sualların və o suallara tapdığı cavabların sayı qədər zəngindir. Əslində insan bir yerdə götürülən sual-cavab deməkdir.

* * *

Şairdən ilahi duyğular tələb edin. Vaxt gələcək, onun duyğuları, sizin duymaq həvəsiniz tükənəcək. Nə qədər ki, həzz bulağının yerində dibi çat-çat, qupquru çala qalmayıb, könül yanğınızı söndürün!

* * *

Əgər hər hansı bir əsərdən təsirlənərək yaratdığın yeni əsər kəşf deyilsə, onda o, ya heç nədi, ya plagiat.

* * *

Sabir şeirindən ahəngdar ideyanı çıxsaq, yerdə nə qalar? Zəmanədən və taledən yarımayan söyüşcül bir müxbir və yaxud ortabab qəzəlxan!

* * *

Şöhrətli adamın uğursuzluğu da uğurları kimi kütləvidir.

* * *

İndi dalğın bir rəssamam; qaralan qanım rəngdi, didilmiş sinəm kətandı, yoluq başım isə tükü tökülmüş fırçadı.

* * *

Və yazmaq it zülmüdü... Kaş indiki ağlım onda olaydı. Kaş elə şair olaraq qalaydım; yeniyetmə, gənc, yelbeyin!

* * *

Mən uzaq yeniyetməlik və ilk gənclik illərində şair idim... İxtiyarımda ağzından mürəkkəb şoralanan qələmim, dama-dama, paralel və çarpaz xətli varaqları irəlidəki mübhəm tale barədə yalnız nikbinlik, uğur vəd edən ucuz dəftərlərim vardı... hər şey rahat başa gəlirdi...

* * *

Nə tərif, nə tənqid - həqiqətləri yalnız təhlil üzə çıxara bilər.

* * *

Övladım, atandan və yaxud anandan eşitdiyin ən acı kəlmələri, hətta təhqirləri belə dərhal bağışla. Çünki o sözləri sənə atan, anan yox, bədənin deyir...

* * *

İqtidara kim gəlsə sənin adamın olacaq; çalış ayaq altında qalma...

* * *

Bütün digər yaradıcılıq sahələrində olduğu kimi şairliyin də əsasında fövqəltəbii enerji dayanır. Bu, birinci şərtdir və izahına ehtiyac yoxdur. İkinci şərt bilikdir. Cahillər üçün şairlik bir yelbeyinin qismətinə düşən gözəl kimidir və o gözəlin pis yola düşməyi istisna deyil. Yaxşı şair olmağın üçüncü şərti məharətdir. Bütün şərtlərin birlikdə mövcud olduğu müstəvi, dördüncü şərt - zəhmətdir. Bu dörd şərti birləşdirməyə fürsət tapan şairin qüdrəti önündə qəzavüqədər də acizdir.

Qoy şairliyi Tanrı hifz etsin...

* * *

Yaşamaq - hərarəti normada saxlamaqdı...

* * *

O şeiri sevirəm ki, oxuyub başa çıxandan sonra demirsən dərindi, müdrikdi, moderndi, sadədə, deyirsən: gözəldi!

* * *

Bağıma bağ kimi baxmıram... Bağıma mövzu kimi baxıram. Bağımı görməyən nə söylədiyimi necə anlaya bilər?

* * *

Bütün hallarda doğulmaq təsadüf, bütün hallarda ölüm zərurətdir. Görəsən, bunun əksi olsaydı, canlı aləmdə nə baş verərdi?

* * *

İki can bir can ola bilməz. Çünki hər can tək cücərir və tək də çürüyür.

* * *

Yelbeyin qələmdən çıxan ən qısa cümlə boşboğazlıq, qüdrətli qələmdən çıxan ən uzun roman yığcamlıq nümunəsidir.

* * *

Qırışıb qocalmış əllərim gənc və qaynar ruhumun ulu babasıdır sanki...

* * *

Şairlərin çəkisini ölçmək qeyri-mümkündür. Çünki onların ağırlığı tərəzi ilə deyil, fəza ilə ölçülür.

* * *

Savaşlardan, kin və küdurətdən doymadı insan; üstəlik Günəşlə Ayın arasına nifaq toxumu səpdi, onları biri-birinin üzünə həsrət qoydu.

* * *

Baxmayaraq ki, yoxdu, ölüb, anamı həddən ziyadə sevirəm, hərdən mənə elə gəlir ki, Peyğəmbəri o doğub...

* * *

Qüdrətli şairlər üçün sərbəst vəznli şeir yazmaq taxıl biçini zamanı günəşin və işin istisindən təntiyəndə tarla kənarındakı tənha palıd kölgəsinə çəkilib təri soyutmağa bənzər. Bərəkətli zəminin bağrından torağaylar kimi qəfil pərvazlanan xalis şeirlərin yuvası, palıd ağacının qalın kölgəsində deyil, göründüyü kimi oradadır, tarlada. Hələ onu demirəm ki, yaxınlıqdakı zəminin varlığından bixəbər yüzlərlə fırıldaqçı nə vaxtdan bəri həmin o qalın kölgəli palıd ağacının altını rahatxanaya çevirib!

* * *

İran, Azərbaycan, Türkiyə, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan - mən bu məmləkətləri yeddi dövlətdən, yeddi millətdən irəli yeddi qardaş bilirəm.

* * *

Paradoks... bizim vaxtımızın əxlaqsızlığı indinin həyat tərzidir.

* * *

Dünya tarixində qara qulların gözəl-göyçək xanım dizlərinə baş qoyub şirin-şirin uyumağından mənfur epizod yoxdur, heç ola da bilməz.

* * *

Saz yeganə musiqi alətidir ki, onun tellərində səs gül kimi yumulur, gül kimi açılır.

* * *

Yaxşı ki, bizim gəncliyimizdə indiki "teledemokratiya" yox idi, yoxsa bu gününün şair və nasirləri o vaxtın şoumenləri olardı.

* * *

Mən ata deyiləm, insanam. Ona görə də ailəmdə hər kəsin özünü idarəetməsini öz ixtiyarına buraxmışam. Yeganə təsir imkanım səbirdir. Polad üzlü qılıncdan daha kəsərli, Tanrının özü qüdrətdə səbir!

* * *

İnsan tərbiyə olunmur, ya onu öldürməli, ya da səbir etməlisən. Allah ikinci yolu buyurub.

* * *

Vəhşi heyvanların yaşamaq məntiqi riyakar intelligentlərin var olmaq meyarlarından min qat humanistdir.

* * *

Dünya bu imiş - zalım, amansız, düşük... Mən başqa cür bilirdim.

* * *

Ağlı başında olan adam dərdlərdən baş alıb qaçmaq üçün minilləsi at axtarır, mən isə hirsindən özü-özünü qapan itəm...

* * *

Atanın oğula, oğulun ataya möhtac olduğu cəmiyyətin dirəkləri qızıldan olsa belə, lənətə layiqdir.

* * *

Sənə diləyə gələnin son ümidini üzülməyə qoymaqdansa vəd ver. O anda verdiyin vəd verə biləcəyin sərvətdən də üstündür.

* * *

İnsan körpəlikdə ata-ananı, evlənəndən sonra oğul-uşağı, öləndə yaxın Allahı uydurur. Əslində o, bu dünyaya İsa Məsih kimi tək gəlib, tək də gedir.

* * *

Sənə, at ol desəm,
cilov gəmirərsən,
İt ol desəm, zəncir...
Adam ol, desəm sənə
dilimi yandırarsan
istiot-istiot,
canımı dalayarsan -
əncir-əncir...

* * *

Ən müdrik valideyn - Aydı, bütün yaxşı və pis əməllərimizi görsə də, üstünü vurmur.

* * *

And olsun dünəndən gələn xatirələrin hənirtisinə, and olsun müəmmalı sabahların sirli köynəyinə ki, üz döndərib yaddan çıxardığınız doğmalara görə axirətdə cavab verməli olacaqsınız...

* * *

Ölüm olumdan əvvəl olsaydı,

yenə də yer üzü boş qalmazdı, dünyanı xortdanlar basardı...

* * *

Yaşamaq ən ideal halda belə baş qatmaqdı...

* * *

Alın yazısının ən yaxşısı şöhrət deyil, davamı olandır...

* * *

Ölüm mücərrəddir, bizi qorxudan ağrıdır.

* * *

Yatmaq təbiətdə ən gözəl rahatlıqdır, yenidən oyanmaq şərti ilə...

* * *

Hamı haqqı qıraqda axtarır, halbuki, o hər kəsin öz içindədir.

* * *

Canlı təbiətin yalnız bir müəmması var - sabah!

* * *

Açarın yoxdursa, bağlı qapılar önündə gəbərəcəksən.

* * *

Kitab öləndə mən də öləcəyəm.

* * *

Dəfnimə bir kimsə gəlməsin; kitablardan başqa.

* * *

Gecələr küləklər əsəndə elə bilirəm qürbətdəyəm - sanki yırğalanan ağaclar hansısa anlamadığım əcnəbi dildə danışır...

* * *

Güclü adam vaxta uyğun olaraq həyatını yenidən başlayan adamdır.

* * *

Biri atdı, biri eşşək, mən həm də itəm!

* * *

Qismətdəkinə nail olmaq namus məsələsidir.

* * *

Ölməmək olmaz, tükənməmək mümkündür.

* * *

Xəbəriniz oldumu, siz məni oxumaya-oxumaya geri getdiniz, mən sizi oxuya-oxuya irəli getdim!

* * *

İnsanı başqa canlılardan ayıran tək bir fərq varsa, o da dildir. Çox da ki, adam kimi danışmır, amma kim deyə bilər ki, çanağı qırışlı beyinə bənzəyən tısbağanın ağlı yoxdur?!

* * *

Yatmaq iki cür olur - qarşıdan gələn sabaha qədər... və bir də əbədi!

* * *

Yaşamaq yatmamaqdır!

* * *

O vaxta qədər yatacaqsan ki, daha yatmayacaqsan.

* * *

Ən demokratik ölkə heç bir guşəsində tıxac olmayan ölkədir.

* * *

Allah, düşüncələrimə nar çiçəklərinin göyçəkliyini ver!

* * *

Yazıçı üçün ədəbi prosesi bilmək yaradıcı ruhdakı prosesi ifadə etmək üçün lazımdır.

* * *

Əziz adamların biri-birindən qopmağının səbəbi odur ki, insanın isti canı get-gedə soyuyur.

* * *

Ata haqqında təsəvvürlər fərqlidi; məsələn, mən doqquz yaşında itirdiyim atamın müqəddəs yoxluğundan hələ də güc alıram. Bununla belə, əlli səkkiz yaşımda hər gün oğlumu düz yola təhrik edir və onun qəlbini incidirəm. Belə olmasın deyə, gərək vaxtında öləydim. Gecdi. Heç olmasa Allah mənə insaf versin - atamın eşqinə...

* * *

Salamatlıqla ötən hər gün yola saldığın əziz dost kimidi, açılan hər yeni sabah qapını qəfil döyən, heç tanımadığın nabələd yolötən!...

* * *

Kimsə qazandığı pulları yığıb dəstələməyi xoşlayır, mən - yazıb doldurduğum vərəqləri.

* * *

Mənə görə hər hansı şəkildə ölüm yazmamaqdan daha şərəflidi.

* * *

Bu məhlə çox gözəldi -
O üzdən ki, özəldi...

* * *

Sənə edilən ən böyük pislikləri dərhal unut, sənə edilən ən xırda yaxşılıqlara min qat qiymət ver; ədalətli olmağın ilk şərti budur.

* * *

Yatmaq qərarı insanın, oyanmaq ixtiyarı Allahın əlindədir.

* * *

Qısa və yaxud uzun ömür boyu insan ən azı bir dəfə anasını qəzəbləndiribsə, demək dünyada təmiz adam yoxdu.

* * *

Həyat elə hey insanı sınağa çəkir, elə bil ayrı işi-peşəsi yoxdu.

* * *

Pislərə pislik eləməyi bacarmıram, pislərə yazığım gəlir.

* * *

İnsan zatən dəyişmir, sadəcə qocalır. Xasiyyət isə süd və qan məsələsidir.

* * *

Qorxunun mənbəyində (kökündə) təcrübəsizlik dayanır.

* * *

Səbəbi anlaşılmayan təsadüfü ölümlər olur. Belə hallarda mənə elə gəlir ki, ölüm Allah əmri deyil, sadəcə Əzrail səlahiyyətlərini aşıb, özü bildiyini eləyir. Bu özbaşınalığa yol vermək olmaz!

* * *

Hətta mənim qədər iddiasız, dürüst, könlütox, təpədən-dırnağa sülh tərəfdarı olan bir bədbəxti də gözü götürməyənlər var... Beləlırini nəinki mən, heç Allah da başa düşmür.

* * *

Həqiqəti demək məqamı gələrsə lalın da susmağa ixtiyarı yoxdur...

* * *

Heç kəs heç kəsdən asılı olmaq istəmir, amma bununla belə hamı kimdənsə asılıdır.

* * *

Tamahkar adam sözü də yeyər.

* * *

Kişilər bostan suyu üstündə bir-birinin üstünə yaba çəkir, xanımlar qeybət qırır, uşaqlar darvazama top çırpır, itlər hürür, toyuqlar həyətdə eşələnir, mənsə qalın kölgəli tut ağacının kölgəsinə çəkilib şeir yazıram.

* * *

Keçilməz dərin meşə qadına, nəhayətsiz yanar səhra kişiyə bənzər, heç birini sona qədər dərk etmək mümkün deyil...

* * *

Qanadlı söz ildırım çaxmasına bənzəyir, əlim qələmə çatınca sözün ətəyi əlimdən çıxır.

* * *

Vəsiyyət yazmayacağam; çünki sərvətim elə miqdardır ki, kimlər və nə qədər bölüşdürsələr, yenə də çoxu mənə qalacaq.

* * *

Süfrədə bal dadan, yanağı allanmış gilas varsa, tumturş alçanı gəmirib üz bürüşdürmək avantüradır.

* * *

Şəksiz ki, mütləq həqiqətlər var; fəqət onlara idrakın əli çatmır!

* * *

Əlli-altmış nəfərlik görüşdə idim. Əksəriyyət yaradıcı gənclərdi. Cavan şairlərdən biri qolumdakı yaraşıqlı, əslində ucuz saatı göstərib soruşdu:

- Bu saatın qiyməti neçəyədi, ustad?

Cavab verdim:

- Bu saatı qızım ad günümdə bağışlayıb, neçəyə aldığını bilmirəm. Düşünürəm, otuz manat olar. Amma mənim üstümdə ürəyimin döyüntüsünü, nəfəsimin gedib-gəldiyini qeydə alan bu saatdan qiymətli ayrı bir cihaz yoxdu. Bu saat dəyərindən asılı olmayaraq çox bahalıdı, çünki vaxtı göstərir...

* * *

Qəribəliyə bax ki, bizim zahiri inanclarımıza rəğmən keçmiş həmişə günçıxandadır - işığın və sənin doğulduğun yerdə...

* * *

Günçıxana baxanda gözünə görünənlər ömür adlanır.

* * *

Yaddaş, işığını itirmiş gözlərin eynəyidir.

* * *

Yaddaş aynasını hər gün sil, keçmiş bir az da aydın görünəcək...

* * *

Təfərrüatsız və ifrat parlaq günlər insan həyatını quru şüara çevirir.

* * *

Keçmiş işıqdan, hadisədən, daddan, qoxudan, rəngdən, havadan, istilikdən, şaxtadan, sevgidən, göz yaşından, qüssədən, yumordan, avaraçılıqdan və Səndən ibarətdir.

* * *

İnanmaq istəyirəm ki, həyat boyu bir-birinin eyninə çevrilən ən azı iki insan var; əks halda yalnız Allahın və yalnız həmən o iki insanın bildiyi gizli yaşantılar olmazdı.

* * *

Hamı ədəbiyyata gəlmək və ədəbiyyatda qalmaq istəyir, halbuki məqsəd əsər yaratmaq olmalıdır.

* * *

Cəddimiz var... Ona görə ki, Peyğəmbər nəslindənik. Ona görə ki, nəslimiz nəinki Peyğəmbərə qədər, hətta Peyğəmbərdən qabaq da namusla yaşayıb...

* * *

Namusu itə atırlar yemir, yaltaq hər şeyi yeyir.

* * *

Özünü tək yaşamağa alışdır! Çünki ən azı milyon il torpaq altında tək yaşayacaqsan!

* * *

Düz deyirlər ki, hər söz deyilib. Amma orasını demirlər ki, hər söz yaşanmayıb...

Yazıçılıq hər qələm çaldıqca yeni söz yaratmaq yox, yazılan hər sözü ayrıca yaşamaq sənətidir!

* * *

Allaha and olsun ki, şairin dəftərini vərəqləyib təzə yazdıqlarına sevinməyi əkinçinin dənə dolmuş buğda zəmisinə baxıb sevinməyi qədər bərəkətlidir!

* * *

Zəif əsəri olmayan sənətkarın səmimiyyəti şübhəlidir.

* * *

Nar - ağacların ən ismətlisi odur; yarpağını və meyvəsini acı çovğunlara və qalın qarlara qədər qoruyub saxlaya bilir.

* * *

Həyat ocaq üstündə dovğa kimidir - çömçəni daim bulamasan çürüyər.

* * *

Pulsuz yaşamaq heç nədi, bu şərtlə ki, puldan başqa hər şeyin olsun.

* * *

Ən bəd beş əməl var - nadanlıq, zalımlıq, pozğunluq, tamahkarlıq, paxıllıq... Ən bəd beş əməli yalnız bir nəfər aradan qaldıra bilər - Sən!

* * *

Öz zamanının ən dəyərli adamı olduğunu düşünmək sənin haqqın, lap nəfəs-nəfəsə dayandığın başqa birisinin zamansız dəyərini nəzərə almaq borcudur. Əslində bu ədalət düsturudur.

* * *

Ən möhtəşəm həqiqət elmdədir. Amma o da yaradandan sonradır. Onun fəhmi hər insana ayrıca-ayrıca, həm də gizlicə-gizlicə verilir. Başlanğıcda ayrıca-ayrıca və gizlicə-gizlicə hansı qüdrət verilibsə, ondan sənin özünün də xəbərin olmur. Həmin enerji arası kəsilməyən bir tərzdə insanı, demək olar, sürüyüb aparır.

* * *

Yaxşı əsərin bütün cümlələri oxucuya aiddir.